Sifarişçinin nümayəndəsi

"____" ______________il

______________

(imza)

## KALKULYASİYA

| İşin və hazırlanan məmulatın adı | Material | | | | | İşçi qüvvəsi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ölçü vahidi | Adı, markası | Miqdarı | Qiyməti | Dəyəri | Dərəcə | Vaxt | Qiyməti | Dəyəri | Dərəcə | Vaxt | Qiyməti | Də[yəri] |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| Cəmi | | | | | | | | | | | | | |

Sifarişin ümumi dəyəri

Material ______________manat

İşçi qüvvəsi ______________manat

Elektrik enerjisi ______________manat

Qaimə xərcləri ______________manat

Sosial müdafiə fondu______________manat

Cəmi ______________manat

Xalis gəlir ______________manat

Satış qiyməti ______________manat

Baş usta

Emalxana müdiri

Sifarişçinin nümayəndəsi



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN TƏLİM TƏSƏRRÜFATI HAQQINDA
## Ə S A S N A M Ə

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir*

1. Bu Əsasnamə təlim təsərrüfatı olan peşə məktəbi və peşə litseyi üçün nəzərdə tutulur.

2. Təlim təsərrüfatı peşə məktəbi və peşə litseyinin struktur bölməsi olub, şagirdlər tərəfindən kənd təsərrüfatı bitkilərinin mütərəqqi texnologiyalarla becərilməsi və yığıl-ması sahəsində, heyvandarlıqda istifadə edilən maşın-me-xanizmlərdə işləmək üçün praktiki vərdişlərə yiyələnməsin-də istehsalat təliminin ilkin bazası sayılır.

3. Təhsil müəssisələrinə təlim təsərrüfatı üçün torpaq sahəsi yerli icra hakimiyyəti orqanlarının sərəncamı ilə ayrılır və respublika hökumətinin qərarı ilə təsdiq olu-nur. Ayrılmış torpağın bazasında Təhsil Nazirliyinin əmri ilə təlim təsərrüfatı yaradılır.

Təhsil müəssisəsi üçün ayrılmış torpaq münbit və ona yaxın. istifadəyə yararlı olmalıdır.

4. Təlim təsərrüfatının vəzifəsi aşağıdakılardır:

4.1. Tədris plan və proqramlarına müvafiq olaraq şagirdlərin peşələr üzrə istehsalat təlimi keçmələrinə şərait yaradılmasını, onlarda əməyə və seçdikləri peşəyə hörmət və məhəbbət ruhunun tərbiyə olunmasını təmin etmək;

4.2. Şagirdlərin peşə hazırlığının daim təkmilləşdi rilməsini, onlarda yeni texnikadan, mütərəqqi texnologi yadan istifadə etmək üzrə praktiki bacarıq və vərdişləri aşılanması üçün şərait yaratmaq;

4.3. Elmi nailiyyətlərdən və mütərəqqi texnologiya lardan istifadə etməklə bitkiçilik və heyvandarlıq məhsul ları istehsalını artırmaq sahəsində yeni metodlar hazır lamaqla təhsil müəssisəsi işçilərinin, ölkə əhalisinin ərza məhsullarına olan tələbatının qismən ödənilməsində və təh sil müəssisəsinin büdcədənkənar gəlirinin artırılmasınd iştirak etmək.

5. Təlim təsərüfatının tədris-istehsalat fəaliyyəti is tehsalat təlimi proqramının tələbləri nəzərə alınmaqla tər tib edilən istehsalat-maliyyə planına əsasən qurulur. B plana pedaqoji şurada baxılır, qəbul edilir və təhsil müəs sisəsinin direktoru tərəfindən təsdiq edilir.

6. Təlim təsərrüfatında bütün işlər şagirdlər tərə findən istehsalat təlimi prosesində yerinə yetirilir. Şagird lərin təlim təsərrüfatında istehsalat təlimi dövründə iş gü nünün davam etmə müddəti az yaşlı və yeniyetmələr üçü müəyyənləşdirilmiş iş günün müddətindən artıq olmamalı v tədris planında nəzərdə tutulan vaxta uyğun gəlməlidir.

7. Təlim təsərrüfatı təhsil müəssisəsinin balansınd olan maşın, avadanlıq və inventarlarla təmin olunu Müəyyən hallarda təhsil müəssisəsi ilə ayrı-ayrı fiziki v hüquqi şəxslər arasında birgə əmək fəaliyyəti haqqınd bağlanmış müqavilələr əsasında da təlim təsərrüfatı sahə lərində təhsil müəssisəsinin balansında olmayan maşın v avadanlıqlardan istifadə oluna bilər.

8. Tədris proqramında nəzərdə tutulmayan və qa nunvericiliklə qadağan olunmayan digər təsərrüfat işlərini yerinə yetirilməsi üçün təlim təsərrüfatının özünün xüsus texnikası, avadanlığı, inventar və materialları ola bilər Mövcud qaydalar çərçivəsində bu növ işlər kənar fiziki v



hüquqi şəxslərlə birlikdə, onların maddi-texniki imkanlarından istifadə olunmaqla, birgə fəaliyyət haqında müqavilələr əsasında həyata keçirilə bilər.

Təlim təsərrüfatında istehsal olunan kənd təsərrüfatı məhsulları mövcud qanunvericiliklə və normativ-hüquqi sənədlərə əsasən təhsil müəssisəsinin pedaqoji şurasında qəbul edilən və direktor tərəfindən təsdiq olunan qaydalara uyğun bölüşdürülür.

9. Təlim təsərrüfatı sahələrindən əldə olunan məhsul bölüşdürülərkən ilk növbədə aşağıdakılar nəzərdə tutulur:

-təlim təsərrüfatının tələbatını tam ödəyən miqdarda toxum, yem və dənli bitkilərin sığorta fondlarının yara-dılması;

-şagirdlərin ictimai iaşəsinin təşkili və təhsil müəssisəsinin işçilərinə satılan məhsullar.

10. Peşə təhsili müəssisəsinin təlim təsərrüfatına məhsul istehsalına və satışına dair müvafiq icra hakimiyyəti orqanları tərəfindən plan qoyulmur. Təlim-təsərrüfatı sahə-sinin istifadəsiz qalmamasına və məhsul istehsalı göstərici-lərinin uyğun bölgə göstəricilərindən aşağı olmamasına nazirlik tərəfindən nəzarət edilir.

11. Təlim təsərrüfatının istehsalat fəaliyyətinin əsas göstəricisi məzunların uyğun sahədə peşəkarlıq səviyyəsi və təhsil müəssisəsinin əldə etdiyi mənfəəti sayılır. Təlim təsərrüfatından əldə edilən gəlir məktəbin (litsey) sərəncamında qalır və aşağıdakı məqsədlərə yönəldilir:

-məktəbin (litsey) maddi-texniki bazasının genişləndirilməsinə və möhkəmləndirilməsinə, təlim təsərrüfatının inkişaf etdirilməsi üçün əsaslı vəsait qoyuluşuna, yataqxana və yaşayış evlərinin, habelə təsərrüfat üçün heyvandarlıq fermaları və istehsalat binalarının tikilməsinə, mal-qara sürülərinin yaradılmasına;

-şagirdlərin mədəni-məişət xidməti işlərinə, məktəb (litsey) və təlim təsərrüfatı işçilərinin mükafatlandırılmasına;

-əla və yaxşı oxuyan şagirdlərin həvəsləndirməsinə, peşə təhsili veteranlarına, şəhid ailələrinə, kimsəsiz və yetim uşaqlara yardım edilməsinə və pedaqoji şuranın qərarı ilə tövsiyə olunan digər məqsədlərə.

12. Təlim təsərrüfatı işçilərinin ştat cədvəli təlim təsərrüfatının ümumi məhsul istehsalının həcminə müvafiq olaraq məktəbin (litsey) direktoru tərəfindən təsdiq edilir.

13. Təlim təsərrüfatı işçilərinin əmək haqqı və mükafatı qüvvədə olan normativ sənədlər əsasında müəyyənləşdirilir.

14. Təlim təsərrüfatında istehsalat təcrübəsi dövrün-də məhsul istehalı işlərində iştirak edən şagirdlər gördük-ləri işin həcminə görə həmin bölgədə tətbiq olunan norma və qiymətlər üzrə 100 faiz əmək haqqı ödənilir.

15. Təlim təsərrüfatında işdənkənar vaxtlarda məhsul istehsalı ilə əlaqədar çalışan istehsalat təlimi ustalarına gördükləri işin həcminə görə və həmin bölgədə tətbiq olunan norma və qiymətlərə uyğun 100 faiz əmək haqqı ödənilir.

16. Təlim təsərrüfatına bilavasitə təhsil müəssisəsinin direktoru tərəfindən təyin olunan müdir rəhbərlik edir. Bu vəzifəyə ali və ya orta ixtisas təhsilli, ixtisası üzrə əməli iş stajına malik şəxslər təyin edilə bilər.



# PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN SİNİF RƏHBƏRİ HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il marixli 250 №-li əmri ilə məsdiq edilmişdir*

**I. Ümumi müddəalar.**

1. Sinif rəhbəri öz fəaliyyətində Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununu, müvafiq normativ sənədləri və bu Əsasnaməni rəhbər tutaraq təhkim olunduğu tədris qrupunda təlim-tərbiyə prosesinin səmərəli təşkili üçün tədbirlər görür, qrup şagirdləri ilə işləyən istehsalat təlimi ustalarının, müəllimlərin, tərbiyəçilərin və şagird özünüidarə orqanlarının fəaliyyətini əlaqələndirir. Onlarla birlikdə dərsdənkənar tərbiyə işlərini təşkil edir, bu sahədə valideynlərlə əlaqə saxlayır.

Sinif rəhbəri istehsalat təlimi ustası ilə birlikdə öz qrupunda təlim-tərbiyə işlərinin keyfiyyətli təşkili üçün cavabdehdir.

2. Sinif rəhbəri təhsil müəssisəsinin direktorunun əmri ilə həmin qrupda dərs deyən ştatlı müəllimlərdən bütün təlim dövrü üçün təyin edilir.